# MƏDƏNİYYƏT ETALONLARI TƏDQİQATIN EPİSENTRİNDƏ



*Əkbər ƏLİOĞLU,*
*filologiya üzrə fəlsəfə doktoru*

XX yüzilliyin 70-80-ci illərində Azərbaycan ədəbi mühitinə qatılıb, ədəbi proseslə nəfəsləşmişəm - deyə yazsam, səhv etmiş olaram. Elə o vaxtlar ustad Rəsul Rza haqqında region çəpərləri hüdudunu aşa bilməyən məqalələr (ədəbi-tənqidi görüşlər, rənglər dünyası ilə bağlı - Ə.Ə.) yazdım, ona şeirlər ithaf etdim, «Beşmərtəbəli evin altıncı mərtəbəsi» haqqında geniş məqaləmi uzun illər sonra çap etdirə bildim. Və ötən müddət ərzində onlar haqqında fundamental yazı hazırlamaqdan qorxdum. Hətta o səviyyədə ehtiyatlandım ki, Rəsul müəllimin görüşünə gedəndə ona «şeirlər gətirmişəm» deməkdən çəkindim, «ədəbi-tənqidi məqalələrim var» - dedim.

Ustad zəhmi məni cəsarətdən çəkindirdi. Amma eyni kursda təhsil aldığım və tələbəlik illərində isti münasibətdə olduğum ədəbi-fəlsəfi fikrin öncül nümayəndələrindən olan Rahid Xəlilov (Ulusel) cəsarətin ümumi nümunəsini göstərdi - ustadın fəlsəfi lirikası ilə bağlı namizədlik dissertasiyası müdafiə edərək çap etdirdi. Elə o vaxtlar böyük alim, o dövr biz gənclərin sevimlisi akademik Yaşar Qarayevlə birlikdə Yuri Borevin «Etetika» kitabını tərcümə edərək nəşr etdirdi və ədəbi fəaliyyətilə bağlı «Ulduz» jurnalında görünməyə başladı. Və çox keçmədən ədəbi elmi ictimaiyyətin episentrində layiqli yerini tutdu. İndi isə budur, geniş ədəbiyyatlardan bəhrələnərək Ulusel düşüncələrinin fərdi gerçəkliyini təmsil edən «Azərbaycan mədəniyyətində Rəsul Rza və Anar» adlı (2022) çox dəyərli tədqiqat əsərini ictimaiyyətin mühakiməsinə təqdim edib. Onların bədii irsinə dünya ədəbiyyatı və mədəniyyəti təcrübələri konteksti ilə milli-mənəvi dəyərlərin vəhdəti qovuşağında polifonik vüsətli münasibətini səmimi alim vicdanı ilə ifadə edərək Rəsul Rza və Anar fenomenlərinə töhfə borcunu şərəflə yerinə yetirərək ədəbiyyatşünaslıq elmimizin xəzinəsini zənginləşdirdi. Bunu özü daha sanballı tutacaqla tarixi spektrin mətnaltı qatında ifadə etmişdir. «Tarixin bütün dövrlərində Azərbaycan mədəniyyətinin tutarı onun siyasət coğrafiyasından gen olub. Azərbaycan türk dünyasının mədəniyyət ərənləri bu dünyanın fatehlərindən də çox könül, düşüncə əraziləri fəth ediblər: (bu fəthin bir nümunəsini də yaxın vaxtlarda Anarın türkdilli ölkələrin ədəbi birliyinin fəxri sədri seçilməsi möhürləyir - Ə.Ə.). təkzibolunmaz aksiomadır ki, ümumbəşəri olan nələr varsa, milli mədəniyyətlərin varlığıyla hesablanır. Bu mənada, «kosmosivilizasiyanın gələcək epoxalarına da planetimiz milli mədəniyyətlərin rəngarəngliklərilə getməlidir ki, yaşaya bilsin». Azərbaycan mədəniyyətinin anatomiyası eyni zamanda Rəsul Rza və Anar şəxsiyyətləri ilə də müəyyənləşir. Burada ritorika axtarmaq lazım deyil. Məsələn, vaxtilə «Ulduz» jurnalında çap olunmuş Aşıq Ələsgərlə bağlı məqalədə bir saçma hələ də düşüncəmdə oturaqlaşıb qalmaqdadır: «Azərbaycan mədəniyyəti təkcə Aşıq Ədalətin sazıyla dünya mədəniyyətində təmsil oluna bilər». Rahid Ulusel öz tədqiqatının dəyər arsenalını məhz bu prizmadan çıxış edərək böyütmüşdür. Həmin arsenalda ümummilli lider Heydər Əliyevin R.Rza və Anar haqqında düşüncələri də boy göstərərək əsərin ictimai-siyasi və mədəni səviyyəsinə üstünlük qazancı bəxt etmişdir. Milli ənənələrə söykənən novatorluğu, bəşəri düşüncələrin kamil poetik ifadə imkanlarının dərinliyi və genişliyi Rəsul Rza poeziyasını nəinki XX əsr dünya humanist poeziyasının öncül örnəyinə və bünövrəsinə çevirmişdir, onu həmçinin əbədi ədəbi şəxsiyyətlər cərgəsinə qoşmuşdur. Azərbaycan şeir sənətinin inkişafı bir də onun adıyla müləşir. H.Əliyevin onun ictimai fəaliyyətinə, bədii irsinə verdiyi dəyərdə bu komponentləri görmək mümkündür. O, eləcə də «...müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərlərinizlə cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmisiniz» - deyə Anarın 60 illik yubileyinə ürək sözlərini ünvanlamışdır.

R.Ulusel öncə bu münasibətə yer ayırmaqla ataoğul irsinə dövlət dəyərini açıqlamışdır. Müəllif bu böyük ustadlar haqqında söhbətə başlamazdan əvvəl «Qüdrətli millət olmaq: tarixin və çağımızın gerçəkləri»nə və «Mədəniyyət axtaqının təməl dəyəri - klassika»ya ekskursiv müraciət edərək bu meyarların fonunda onlara ilkin dəyərini açıqlayır: «Dünya mədəniyyətinin diri qalmasının yeganə çarəsi və inkişafının yeganə stimulu - onun özəyini təşkil edən, ruhunu yaradan klassikadır. Klassika bu gün də mədəniyyəti zibilləməyə qarşı çağdaş sənətkarlarla çiyin-çiyinə, bəlkə, onlardan da artıq, daha qətiyyətli mübarizə aparır. Onun arsenalı böyük, müqaviməti yarılmazdır. Dünya mədəniyyəti qalasının qorunmasında ön cinahda dayananlar - klassikanın yaradıcılarıdır. Bu yaradıcıların sırasında klassikanı örnək sayan və onu böyük ədəbiyyatın, ədəbi-bədii təcrübənin qaynağına gətirən Rəsul Rza və Anar da vardır». Bu klassikliyi sağlığında qazanan Anar müasir ədəbiyyatımızın beşiyi başında durmaqla ona ağsaqqallıq missiyasını şərəf və vicdanla həyata keçirir, klassiklərimizə ehtiramını əsərləri və kino ssenariləri ilə gerçəkləşdirir.

Rahid Ulusel kitabın I hissəsini təmsil edən dərin və əhatəli giriş söhbətindən sonra II hissəyə - «Əbədiyyətin duyarı» başlığı altında «Ustad Rəsul Rza» irsinə ümumi baxışının ilkinliyinə ayaq açır və nələr söyləmir... «Təbiətin də, tarixin də köklərində mənəviyyat arayan axtarışçı», «Bəşəriyyəti insan-insan, onların hər birinin yeganəliyində duyan və duyuran mütəfəkkir», «Qaranlıqları aydınladan çıraq», «Donuqluğu, ətaləti sökən hərəkət», «Həyatı söz, sözü həyat qədər dadlandıran, ucaldan və əbədiləşdirən ustad», «Bütün ədəbi nəsilləri əl-ələ tutduran ədəbiyyat ağsaqqalı», «Ana yurdu ilmə-ilmə poeziyasına toxuyan sənətçi»... «təkamülçü», təməlçi», «islahatçı», «kövrək ədəbi gəncliyə və onun titrək sözünə, özünü zərbələr altına qoymaqdan belə çəkinmədən dayaq duran hafiz», «Azərbaycan millətinə məxsus ərdəmliyin görkü», «Əbədiyyətin duyarı Rəsul Rza»... bu yarlıqları Rəsul Rza ucalığına təşnə bilən sevgisi olan yaradıcı, bənzərsiz filosof izah edə bilər. Bu yarlıqlara bərabər olan analitik təhlil və şərhlər boyu konkret nümunələrin təqdimatıyla gerçəkləşir. Və nə yaxşı ki, bu yarlıqlar gəlişigözəl missiyadan çox-çox uzaqdır.

Əlahəzrət həqiqətin polifonik simfoniyasıdır, bəşəri təqdimatın hüdudsuz təntənəsi və ehtiraslı yaradıcılıq axtarıcısının klassik nümunəsidir. Milli bədii təfəkkürümüzün yeni qatlarını açaraq, onun ictimai yükünü, bənzərsiz ölçüsünü folklor və klassika poeziyanın vəhdətində milli problemlərin bəşəri səviyyədə ifadəsinə xidmət edən aşağıdakı deyim qeyd olunan yarlıqlara gözəl nümunə sayıla bilər:

Azadlığı dustaq,
taleyi yad əllərdə oyuncaq,
dili ali məclislərdə yasaq,
səadəti qaçaq
bir millətin yaraları.

«Kimdir bu millət?» Azərbaycan milləti! Qafiyəyə o qədər də meyl etməyən Rəsul Rza burada bir neçə seçmə qafiyəli sözün hədəfini elə tapıb ki, o sözün hər biri sinirə toxunan olub, onların bədii hörgüsündən xalqın faciəvi həyatının mənzərəsi yaranıb», - deyə bədii suala müəllifin özü cavab verir.

Şairin yaradıcılığındakı folklor yüklü ovqatlar, deyimlər onun Aşıq Yanıqlı ünvanlı lirik qəhrəmanının dilindən gözlənilməz improvizasiyalar kimi gerçəkləşdiyini aşağıdakı nümunəylə möhürləyir Ulusel:

Baxıb heyran qalardı,
Sevinərdi, gülərdi.
Gül cəh-cəh dodağından
qızılgül tökülərdi...

«Şifahi xalq yaradıcılığı Rəsul Rza üçün elə ədəbi bir çeşmədir ki, oradan ...poeziyanın arteriya damarları ilə yeni obrazların həyatverici qanı axıb gəlir». Təhlilçi Dm.Maldovskidən gətirdiyi bu sitatı tamamlayan nümunələr silsiləsinə elə şərhlər verir ki, Rəsul Rzadan ibarət bir xalq müdrikinin parlaq obrazı gözümüz önündə canlanır. Bununla bağlı düşüncələrinə yekun çalarları qatan müəllif «Bəli, xalqın bədii fikrinin tərəqqisi, intibah və hərəkəti eyni vaxtda həm kökə, həm də gələcəyə doğru uzanan yollarda baş verir» - nəticəsinə gəlir. Bu yolun yolçuluğuna isə hələ uşaqlıq illərində ona sarbanlıq edən anası Məryəm xanımın uzun gecələr söylədiyi bayatılar omluşdur. Sinə dəftərliyin isə ona Xan qızı Natəvan şəcərəsindən olmasının rolunu da istisna etmək olmaz. Təhlilçi şairin yaradıcılığında milli koloritliyi, doğmalıq notlarını «umsuq, irmik, bıtraq, zəqqum, çöçün, taytaq, mazarrat, kütmül, tın-tın, qut, çırtaq, dov, mızı, dazımaq, köbər» və s. kimi xalq danışıq ifadələrinin simasında diqqətə çəkərək yazır ki, Rəsul Rza həmişə xalqın dil-tarix məbədininmehvərində dolanıb, dilin tarixi yaddaşının qatlarında həkk olunan hər şey şair üçün qiymətli olub, «söz, alət, vərdiş... hətta münasibətlər arxaikləşə bilər, amma xalqın mənəviyyatının varisliyi qanunu pozula bilməz». Və bu bü münasibətlə -

Gün düşdü qalaya da,
Kölgəli talaya da.
Qorxuram susa nəğməm,
Bəstəsi qala yada.

- deyiminə istinad edərək fikrinə davam edir. «Bu misralar sovet dönəmində Azərbaycan türkcəsinin taleyinə nigarançılıqdan da artıq - milli varlığımıza yönələr təhlükələrdən Azərbaycanı ayıltmaq cəsarətinin örnəyi idi. Bəli, doğrudan-doğruya, bu örnəkliyi sonralar M.Araz, B.Vahabzadə, X.Rza və müasirlərimiz Ə.Xələfli yaradıcılığında da oturaqlaşdığına şahid lik edə bilərik.

Yaradıcılığında ədəbi varisliyi özünəməxsus poetik üsulla qoruyub saxlayan şair klassiklərə dəfələrlə müraciət edib, onlara «Ata Sabir», «Dədə Füzuli», «Baba Nəsimi» deyib və onlarla müasirləri arasında körpü yaradıb. Məsələn, o, Mirzə Cəlil üslubuna xas daxili həyəcana «sükutun içində gizlənmiş üsyana...» nəhayət, ezop dilinə bigənə qala bilərdimi? Əslə. Budur, bu münasibətlə təhlilçi yazır: «Mirzə Cəlil öz pəltək danışığı ilə həm rus, həm də Azərbaycan dillərini rüsvay edib hörmətdən salan» «itilgetlər» haqqında yazırdı ki, onlar «bir zinəkomini vstret eləyəndə deyirlər: «İzdrasti bacaluska!» Rəsul Rza isə həmin «itilgetin» müasir tipi haqqında ifşaedici sarkazmla yazır:

Bir natiqə rast gəldim, nə net bilirdi, nə yest.
Rus sözləri qatırdı məruzəsinə tez-tez.
«Əgər seryozna baxsaq - deyirdi, - məsələyə,
Zaputat eləyiblər bizi yaman kələyə.
Mən iskram adamam, hamı bilir çestniyəm.
Heç abijah olmaram, yaşasam da testni mən.
Butdum, dobrum, sizin də bir sovestiniz olsun,
Bizim obşestvada layiq metini olsun.

Elə bu gün - müstəqillik çağında rastlaşdığımız tanış situasiyadır, deyilmi! - deyərək uçtad irsinin bənzərsiz poetik hadisə olduğunu, ədəbi varisliyində millilik və vətəndaşlığın qranit postamentliyini bir daha vurğulayır.

Kitabda Rəsul Rza ədəbi şəxsiyyətinin əzəməti, vöyüklüyü və bunları səciyyələndirən fraqmentlər müəyyən başlıqlar altında sıralanaraq təhlil edilmişdir. Başlıqlar altında nizamlanmış mətnlər onların daşıdığı elmi və bədii yükü demək olar ki, vicdanla, obyektivliklə öz çiyinlərində saxlaya biliblər. Və bunlar lazımi səviyyədə və miqdarda poetik nümunələr hesabına məntiqi cəhətdən əsaslandırılıblar. Əsas məsələ isə fikrin ifadə baxımından fərdi üslubi imkanların çəkərlik dəyərindən ibarətdir.

***(Davamı var)***